Kazus

Ərizəçilər - Kemal Taşkın, Medeni Alpkaya, Abdulkadir Fırat, Doğan Genç, Emin Anğ, Celalettin Yöyler, Emir Ali Şimşek və Reşit Sünbül kürd əsilli Türkiyə Respublikası vətəndaşlarıdırlar. Ərizəçilər adın dəyişdirilməsi prosedurasını başlatmaq məqsədi ilə milli məhkəmələrdə iddia qaldırmışlar. Hər bir müraciətdə əks etdirilən hadisələr aşağıdakı formada qısa şərh edilə bilər.

2003-cü ilin noyabr və dekabr aylarında, Taşkın, Alpkaya, Fırat, Anğ və Şimşek səlahiyyətli məhkəmədə adın dəyişdirilməsi ilə bağlı iddia qaldırmışlar. **Taşkın** "Kemal" olan adının kürd dilində "arzulanan" mənasına gələn "Dilxwaz" olaraq dəyişdirilməsini tələb etmişdir. O, bu adın xüsusi ilə yaxın ətrafı tərəfindən istifadə edilən bir ad olduğunu qeyd etmişdir. Eyni iddiaya istinad edən **Alpkaya, Fırat, Anğ və Şimşek** adlarının müvafiq olaraq: Alpkaya üçün "Xoşewist" (kürd dilində "uca, hörmətli") və Fırat, Anğ və Şimşek üçün "Berxwedan" (kürd dilində "müqavimət") olaraq dəyişdirilməsini tələb etmişlər.

Genç məhkəmədə adın dəyişdirilməsi ilə bağlı iddia qaldıraraq "Doğan" olan adının "Ciwan" olaraq dəyişdirilməsini tələb etmiş, kürd dilində bu adla özünü daha yaxşı ifadə edəcəyini və ailələrin uşaqlarına kürd dilində ad qoymaq istəyərkən çətinliklərlə qarşılaşdıqlarını qeyd etmişdir.

Yöyler isə anadan olarkən valideynləri tərəfindən ona "Xweşbin Yekta" adının qoyulmaq istənildiyini (kürd dilində, "Xweşbin" "xoş düşüncəli" və Yekta "bənzərsiz" mənası daşıyır), ancaq o dövrdə qüvvədə olan qanunlar səbəbindən adını "Celalettin" qoymaq məcburiyyətində qaldıqlarını iddia etmişdir.

Milli məhkəmələr ərizəçilərin tələblərini təmin etməmişdir. Məhkəmə ərizəçilərin seçdiyi adların "q", "w" və "x" kimi hərfləri ehtiva etdiyini və bu hərflərin "Türk Hərflərinin Qəbul və Tətbiqi Haqqında" 1353 saylı Qanunda göstərilən rəsmi iyirmi doqquz hərf içərisində olmadığına istinadla adı çəkilən ərizələrlə bağlı iddia qaldırılmasının imkansız olduğu qənaətinə gəlmişdir.Məhkəmə xüsusilə Türkiyə Respublikası Konstitusiyanın 3-cü maddəsində Türkiyə Respublikasının bütün rəsmi sənədlərində istifadə olunması zəruri olan Türk dilinə Konstitusion bir status verildiyi qənaətinə gəlmişdir.Digər tərəfdən məhkəmə, belə bir vəziyyətdəxüsusi iləMülkü Məcəllənin 27-ci maddəsinin tətbiq edilməsininlazım olduğunaqərar vermişdir. Məhkəmə son olaraq, ərizəçinin adının çıxardığı səs baxımından "w" hərfi ilə demək olar ki, eyni və ya çox bənzər olan "v" hərfiylə yazılmasının tələb edilmədiyini də əlavə etmişdir.

Sünbülisə qaldırdığı iddiasında 2003-cü ildə edilən qanun dəyişikliklərindən sonra kürd dilində soyad istifadə imkanı yarandığını xatırladan həmin şəxs adının "Bawer Reşit" olaraq dəyişdirilməsini tələb etmişdir.

Məhkəmə isə onun tələbini qismən qəbul etmiş və "Bawer" kəliməsindəki "w" hərfinin rəsmi əlifbadakı iyirmi doqquz hərf içərisində mövcud olmadığına görə bu şəkildə yazılmasının mümkünsüz olduğuna və "v" hərfi ilə yazılaraq –Baver- şəklində vətəndaşlıq aktları reyestrində qeyd edilməsini qət etmişdir.

Ərizəçilər istifadəsini arzu etdikləri və "q", "w" və ya "x" hərflərinin də mövcud olduğu adların olduğu kimi yazılmasının qadağan edilməsi ilə Konvensiyanın 8-ci maddəsində nəzərdə tutulmuş şəxsi həyatın qorunması ilə bağlı hüquqlarının əsassız şəkildə pozulduğunu iddia etmişlər.

Hökumət bu iddialara qarşı çıxmış və Türkiyə məhkəmələrinin verdikləri qərarlarında xüsusilə "Türk Hərflərinin Qəbul və Tətbiqi Haqqında" 1353 saylı Qanunu əsas aldığını vurğulamışdır. AİHM, Hökumətin də qeyd etdiyi kimi sözügedən müdaxilənin bütün rəsmi sənədlərdə milli əlifbanın istifadə olunmasının məcburiliyini nəzərdə tutan 1353 saylı Qanuna əsaslandığına şübhə etmir.

Hökumətin fikrincə bir Dövlətin rəsmi dilinin oynadığı önəmli rol diqqətə alındığında, müdaxilənin əsasən başqalarının hüquq və azadlıqlarının, eləcə də ictimai asayişin qorunması kimi qanuni məqsədlərə yönəlmiş olduğu aşkardır.

Hökumətə görə adların milli əlifba qaydalarına uyğun olaraq yazılma məcburiyyəti ərizəçilərin qarşılaşdığı narahatçılığın kifayət qədər önəmli olmaması səbəbi ilə şəxsi həyatlarına hörmət edilməsi hüquqlarına qarşı hüquqa zidd davranış deyildi. Bundan başqa, Hökumət Türk əlifbasındakı "k" ks"və "v" kimi bəzi hərflərin oxunuşlarının sırayla "q" "x" və "w" hərfləriylə eyni səsi verdiyini müdafiə etmişdir. Xüsusilə, Sünbülün daşımağı tələb etdiyi "Bawer" adının milli əlifbaya uyğun olaraq "w" yerinə "v" hərfiylə yazıla biləcəyini misal olaraq göstərən Hökumət müraciət edənlərin adlarının milli əlifbadakı hərflərdən istifadə etməklə problemsiz bir şəkildə yazıla biləcəyini irəli sürmüşdür.

Konvensiyanın 8-ci maddəsinin pozuntusu baş vermişdirmi? Fikrinizi bildirin.

Hazırladı: Xəqani Məmmədov
Elnur Həsənov